AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyasi.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
*№ 15 (1475), 4 - 17 may 2021-ci il*
*Qəzet 2001-ci ildən çıxır.*

## Azad Arif oğlu Rəhimov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimov 2021-ci il aprelin 30-da ömrünün 57-ci ilində vəfat etmişdir.

Azad Rəhimov 1964-cü il oktyabrın 8-də Bakı şəhərində anadan olmuşdur. O, Bakı şəhəri 134 nömrəli orta məktəbi bitirmiş, 1981-1986-cı illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda ingilis dili fakültəsində ali təhsil almışdır.

Azad Rəhimov 1986-1987-ci illərdə hərbi xidmət keçdikdən sonra 1987-1990-cı illərdə rayon komsomol təşkilatında katib və birinci katib, 1990-1993-cü illərdə Azərbaycan Gənclər Təşkilatları Komitəsinin sədri vəzifələrində işləmiş, 1993-cü ildən dövlət idarəçiliyinə gələnədək sahibkarlıq fəaliyyəti göstərmişdir.

2006-cı ildə Azərbaycan Respublikasının gənclər və idman naziri təyin olunan Azad Rəhimov ömrünün sonunadək bu vəzifəni icra etmiş, həmin illərdə eyni zamanda Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti olmuşdur.

Azad Rəhimov gənclər və idman naziri kimi çalışdığı müddət ərzində daim işgüzarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona həmkarları arasında böyük hörmət qazandırmışdır. Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan idmanın qarşısında dayanan vəzifələrin müvəffəqiyyətlə gerçəkləşdirilməsi üçün qüvvə və bacarığını əsirgəməyən Azad Rəhimov respublikada idmanın maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və kütləviliyinin artırılması, eləcə də idmançılarımızın ən mötəbər yarışlarda iştirakının yüksək səviyyədə təmin edilməsi və ölkəmizin idman şərəfinin beynəlxalq miqyasda layiqincə qorunması işinə töhfələr vermişdir. Azərbaycan gəncliyinin inkişafına dair dövlət proqramları və strategiyaların hazırlanmasında, habelə gənclərin yaradıcılıq potensialının üzə çıxarılması ilə bağlı tədbirlərin uğurla həyata keçirilməsində onun təqdirəlayiq xidmətləri olmuşdur.

Azad Rəhimovun səmərəli fəaliyyəti yüksək qiymətləndirilmiş və o, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan “Şöhrət” və 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı və səmimi insan Azad Arif oğlu Rəhimovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Adil Əliyev
Eldar Əzizov
Yusuf Məmmədəliyev
Çingiz Hüseynzadə
Ağacan Abıyev
Fuad Hacıyev
Fərid Cəfərov
İlqar Rəhimov

## Gimnastlarımız Avropa çempionatını 3 medalla başa vurdular

Rusiyanın Soçi şəhərində keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə Avropa çempionatında Azərbaycan yığması 1 gümüş və 2 bürünc medal qazanıb. Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, çempionatın ilk medalını gənclər arasında yarışan tamblinqçilərimiz qazanıb. Hüseyn Əsədullayev, Tofiq Əliyev, Adil Hacızadə və Bilal Qurbanovdan ibarət Azərbaycan komandası fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Növbəti medal son Dünya Yaş Qrupları Yarışlarının gümüş medalçıları Hüseyn Abbasov və Mahsud Mahsudov sinxron cütlüyündən gəlib. Onlar dünya üzrə nəticələrini təkrarlayaraq qitə birinciliyində də gümüş medala sahib çıxıblar.

Qeyd edək ki, bu yarışda 13-17 yaşlılar arasında çıxış etmiş 13 yaşlı Hüseyn və Maqsud özlərindən daha böyük və təcrübəli gimnastlarla mübarizə apararaq fəxri kürsüdə yerlərini alıblar.

Çempionatın son medalı isə təcrübəli tamblinqçimiz Mixail Malkindən gəlib. Uzun müddətdən bəri iri miqyaslı beynəlxalq yarışlarda zədə səbəbindən iştirak etməyən Mixail, gərgin mübarizə şəraitində keçən final mərhələsində bürünc medal qazanmağa nail olub.

Fərdi batut yarışlarında yeganə qadın gimnastımız Selcan da qitə birinciliyinin finalına vəsiqə qazanıb. Həlledici final mərhələsində Selcan 6-cı olub. İlk dəfədir ki, Azərbaycanın qadın təmsilçisi Avropa çempionatının böyüklər arasında ən güclü 8 gimnastı arasında mübarizə aparıb.




Bu Avropa çempionatı Azərbaycan gimnastikası üçün “ilk”lərlə tarixə yazılıb. Belə ki, həm tamblinqçilərimizin komanda hesabındakı bürüncü, həm də sinxron cütlüyümüzün layiq görüldüyü gümüş medal gənclər yaş qrupunda gimnastlarımızın Avropa çempionatından ölkəmizə qazandırdığı ilk medallardır. Eləcə də, gimnastımız Selcanın çempionatın finalında iştirakı gimnastikadakı nailiyyətlərimiz sırasında bir ilkdir.

## Beynəlxalq Olimpiya Komitəsi “Olimpiya virtual seriyası” yarışı keçirəcək

Beynəlxalq Olimpiya Komitəsi (BOK) fiziki və qeyri-fiziki virtual idman növləri üzrə yarış keçirəcək.

Turnir “Olimpiya virtual seriyası” adlanır. BOK prezidenti Tomas Bax bunun yeni bir auditoriya ilə qarşılıqlı əlaqələrin keyfiyyətini artırmağa yönəlmiş unikal bir təcrübə olduğunu bildirib.

Yarışın konsepsiyası “Olimpiada-2020” gündəliyi və rəqəmsal strategiyası ilə uyğundur.

İlk “Olimpiya virtual seriyası”nda BOK tərəfindən tanınan federasiyaların rəhbərlik etdiyi idman növləri beysbol, velosiped idmanı, avarçəkmə, yelkənli avarçəkmə və avtomobil idmanı yer alacaq.

OLYMPIC VIRTUAL SERIES

Turnir Tokio-2020 Yay Olimpiya Oyunları ərəfəsində - mayın 13-23-də təşkil olunacaq.

## “Olimpiya dünyası”nın keçirdiyi tədbirlər sağlam həyat tərzinə xidmət edir

Səh. 4-5

***Karate1 Premyer Liqa turniri 2 medalla yadda qaldı***

Səh. 3

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Tokio-2020: tamaşaçıların iştirakı məsələsi iyunda aydınlaşacaq

Tokio Olimpiya və Paralimpiya Oyunlarının təşkilatçıları tamaşaçıların yarışlarda iştirakı və onların sayı məsələsini koronavirus pandemiyası ilə əlaqədar iyunda aydınlaşdıracaqlar.

Kyodo agentliyinin yaydığı xəbərdə bildirilir ki, bu barədə qərar Tokio Olimpiadasının təşkilatçılarının beştərəfli onlayn görüşündə qəbul edilib. Təşkilatçılar, həmçinin təhlükəsizliyi təmin etmək məqsədilə bütün iştirakçı idmançıların gündəlik test verməsi barədə də razılaşıblar.

Eyni zamanda, təşkilatçıların bildirdiyinə görə, əcnəbi idmançılar və əməkdaşlar öz ölkələrini tərk etməzdən əvvəl iki dəfə virus testindən keçəcəklər.

Bildirilir ki, yeni qaydalar təşkilatçıların hazırladığı “playbooks”un yenilənmiş versiyasında öz əksini tapıb.

Baş nazir Yoşihide Suqa bu ərəfədə bəyan edib ki, Yaponiya hökuməti Tokio Oyunlarının təhlükəsizliyini və etibarlılığını təmin etmək üçün lazım olan bütün addımları atacaq. Lakin hökumət tərəfindən görülən tədbirlərə baxmayaraq, ölkə üzrə yoluxma səviyyəsini azaltmaq mümkün deyil.

Xatırladaq ki, hökumət Tokioda və bir neçə digər prefekturada mayın 11-dək üçüncü fövqəladə vəziyyət rejimi elan edib. Aprelin 25-dən qüvvəyə minmiş fövqəladə vəziyyət rejiminə görə, bütün böyük kommersiya obyektləri, tematik parklar, karaoke salonları və spirtli içkilərin təklif edildiyi restoranlar bağlanıb.

BOK və Tokio Olimpiadasının Təşkilat Komitəsi isə bütün iştirakçı idmançılar və rəsmi şəxslər üçün peyvəndin vurulmasını məcburi elan edib.

Olimpiya dünyası

4 - 17 may 2021

## Milli Olimpiya Komitəsi

Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, respublikada gəncliyin və idmanın inkişafına mühüm töhfə vermiş Azad Arif oğlu Rəhimov uzun sürən xəstəlikdən sonra 30 aprel 2021-ci il tarixində ömrünün 57-ci ilində vaxtsız vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycanın Gənclər və İdman naziri vəzifəsinə təyin edilmiş Azad Rəhimov nazir olduğu müddət ərzində 2015-ci ildə Avropa Oyunlarının, 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadasının, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının, 2017-ci ildə voleybol üzrə qadınların Avropa Çempionatının, 2019-cu ildə UEFA Avropa Liqası Finalının, 2019-cu ildə Avropa Gənclərinin Olimpiya Festivalının, 2020-ci ildə isə UEFA Avropa Çempionatının Azərbaycanda baş tutması üzrə yaradılan komitələrin üzvü olmuşdur.

Azad Rəhimov gənclər və idman naziri olmaqla yanaşı, son 15 il ərzində Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti kimi ölkəmizdə Olimpiya Hərəkatının inkişafına, milli atletlərimizin Olimpiya Oyunlarında və digər nüfuzlu beynəlxalq idman yarışlarında uğurlu iştirakına, bu işin səmərəli şəkildə təşkilinə mühüm töhfə vermiş ictimai xadim idi.

Azad Rəhimov idman sahəsində dövlət siyasətinin həyata keçirilməsində özünəməxsus rol oynamış, idmançılara göstərdiyi qayğı ilə onların əsl dostuna çevrilmiş, ölkəmizin idman ictimaiyyətinin qəlbində özünə böyük rəğbət qazanmış səmimi insan idi.

Azərbaycan Milli Olimpiya Komitəsi və Milli İdman Federasiyaları Azad Rəhimovun vaxtsız vəfatından kədərləndiyini bildirir, onun ailəsinə, yaxınlarına və bütünlükdə respublikanın idman ictimaiyyətinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

## Gənclər və İdman Nazirliyi

Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimov 2021-ci il aprelin 30-da, ömrünün 57-ci ilində vəfat etmişdir.

Azad Rəhimov uzun illər Azərbaycanın milli maraqlarının qorunması üçün bilik və bacarığını əsirgəməyərək, özünün yüksək peşəkarlığı və təşəbbüskarlığı sayəsində dövlət gənclər və idman siyasətinin həyata keçirilməsində, dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanıb müvəffəqiyyətlə icra edilməsində uğurlu fəaliyyət göstərmişdir.

Gənclər və idman naziri kimi 15 il ərzində ölkə prezidentinin rəhbərliyi ilə respublikamızda gənclərlə iş sahəsində fəaliyyətin gücləndirilməsində, idman infrastrukturunun inkişafında, nüfuzlu beynəlxalq tədbirlərin təşkilində, dünya və Avropa gənclər və idman qurumları ilə əlaqələrin qurulmasında, Azərbaycanın dünyanın idman mərkəzlərindən biri kimi tanınmasında misilsiz xidmətlər göstərmişdir.

Nazir Azad Rəhimov ilk dəfə təşkil olunan və 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının, 2019-cu ildə Avropa Yeniyetmələrin Yay Olimpiya Festivalının, Şahmat Olimpiadası, Formula 1 Azərbaycan Qran-Prisi, dünya və qitə çempionatlarının ölkəmizdə yüksək səviyyədə təşkilində müstəsna xidmətlər göstərmişdir.

Azad Rəhimovun xidmətləri dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin 29 iyun 2015-ci il tarixli sərəncamı ilə "Şöhrət" ordeninə, 24 iyul 2019-cu il tarixli sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülmüş, eləcə də 8 oktyabr 2014-cü ildə Azərbaycan Milli Olimpiya Komitəsinin "Olimpiya" ordeni ilə təltif edilmişdir.

Azad Arif oğlu Rəhimovun vaxtsız vəfatından kədərləndiyimizi bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı, rəhbərlik etdiyi kollektivin həqiqi lideri, səmimi, xeyirxah və təvazökar insan, gənclərin və idmançıların dostu Azad Rəhimovun əziz xatirəsi Azərbaycan ictimaiyyətinin qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

## Bir bayraq dostuma rəhmət diləyirəm

Dünyanı cənginə almış Covid-2019 pandemiyası üzündən dünyadan köçənləri hörmətlə andığımız dönəmdə Amerika Birləşmiş Ştatlarından Türk dünyasına üzücü bir xəbər gəldi. Dost və qardaş Azərbaycanın öndə gedən dövlət adamlarından gənclər və idman naziri, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Azad Rəhimov xəstəxanada həyatını itirdi. Azad can dostlarımdan biri idi. Belə deyərdi: "Biz bayraq dostuyuq" Ölkəmizin ay-ulduzu və Azərbaycanın günəş ulduzu ilə bağlı idik. Azad uğurlu bir iş adamı idi. Azərbaycan Prezidenti cənab İlham Əliyev bunu gördü və onu Azərbaycanda müvafiq sahəyə, daha sonra da idman rəhbərliyinə təyin etdi. I Avropa Oyunlarının, eləcə də Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatının Konqress və Assambleyalarının uğurlu təşkilində danılmaz əməyi var idi.



Bir Bayrak Dostuma

Rahmed diyorum

Erdoğan ARIPINAR

Dünyanın üzerine çöken Pandemide göçenleri saygı ile anarken, birde Amerikadan Türk dünyasına üzücü bir haber ulaştı. Dost ve kardeş Azerbeycanın önde gelen devlet adamlarından Olimpiyat komitesi başkan yardımcısı Gençlik ve Spor Bakanı Azad Rahimov hastahanede hayatını kaybetmişti. Azadcan dostlarımdan birisi idi. Öyle derdi. Biz Bayrak dostu idik. Ülkemizin ayyıldızı ve Azerbeycanın güneş yıldızı ile bağlıydık. Azad başarılı bir iş adamı idi. Başkan Aliev bunu gördü ve Onu Azerbeycandaki mali işlerin, sonrada sporun başına getirdi. Avrupa oyunlarında o vardı. EFPM ve CİFP'in Baku kongrelerinde de onun eli emeği vardı. Can kardeşim Dünya şampiyonu Azerbeycan Milli olimpiyat komitesinin başkan yardımcılarından Fair Playi Azerbeycanda kuran Hazar İsaeve her çalışmasında destek verdi. Son olarak onunla Budapeştede kucaklaşmıştık. Dünya Fair Playinin CİFP'nin ona ittifakla verilen büyük ödülünü almaya gelmişti. Hem Azerbeycan, kıymetli bir evladını, Türkiye de candan bir dostunu, bende onun tabiriyle bir bayrak dostumu kaybettik. Türk dünyasına Azerbeycana ve ailesine başsağlığı ve Azad kardeşime Tanrıdan rahmed diliyorum.

**FOTOĞRAFLAR**

**1- Erdoğan ARIPINAR Azad Rahimovla Bakuda bir sohbette**

**2- Budapeştede CIFP ödül töreninde. Azad Rahimov Türkiyeden Ödül kazananlar ile (Altınordu Temsilcisi Aydın Güvenir, Hazar İsaev Senra Demirel, Azad Rahimov, Erdoğan Arıpınar, Ünspet Genel Md, Rıza Mehmet Korkmaz))**

Can qardaşım MOK-un vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri Xəzər İsayevin ədalətli oyunların təbliği və inkişafı istiqamətində gördüyü işlərə həmişə dəstək verərdi. Sonuncu dəfə onunla Budapeştdə görüş zamanı qucaqlaşdıq. Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin ona təqdim etdiyi mükafatı almağa gəlmişdi. Azərbaycan dəyərli övladını, Türkiyə isə can dostunu, onun təbiriylə desək, bayraq dostunu itirdi. Türk dünyasına, Azərbaycana və ailəsinə başsağlı diləyir, Azad qardaşıma Tanrıdan rəhmət diləyirəm.

**Ərdoğan Arıpınar,**
**Türkiyə Ədalətli Oyunlar Komissiyasının prezidenti,**
**Avropa Ədalətli Oyunlar Hərəkatının vitse-prezidenti,**
**Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin İcraiyyə Komitəsinin üzvü**

## *İslam Həmrəyliyi İdman Federasiyasından*

*(Həqiqətən də biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!)*

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimovun ölümü barədə xəbəri dərin narahatlıq və kədər hissi ilə qarşıladıq (Allah rəhmət eləsin!).

Allahın iradəsinə tam inanaraq səmimi qəlbdən İslam Həmrəylik Oyunları Federasiyasının prezidenti, Şahzadə əlahəzrət Abdulaziz bin Turki AL-FAİSAL AL SAUD, habelə İdarə Heyətinin və Baş Katibliyin üzvləri adından hörmətli Azad Rəhimovun böyük itkisi ilə əlaqədar Azərbaycan xalqına və idman ictimaiyyətinə dərin hüznlə başsağlığı veririk.

Azad Rəhimov idman ictimaiyyətinə və İslam dünyasına qarşı çox müsbət və xoş münasibət bəsləyib. Yalnız Azərbaycanda deyil, həm də İslam dünyasında gənclərin və idmanın inkişafı məsələlərinə mümkün olan hər cür maddi dəstək və səy göstərirdi.

Bu böyük itki ilə əlaqədar özümüzü və İslam dünyamızı təsəlli edərkən ruhuna rəhm etməsi, cənnətdə əbədi yer nəsib etməsi, ailəsinə və dostlarına cəsarət və səbr verməsi üçün uca Allaha dua edirik.

Hörmətlə,
**Mohammed S. AL-QARNAS**
**İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi**

## *Rusiya Olimpiya Komitəsindən*

Azad Rəhimovun vəfat etməsi xəbərini böyük təəssüf hissi ilə öyrəndik. Biz onu təkcə Azərbaycanda deyil, bütün Avropa ərazisində idmanın və Olimpiya Hərəkatının inkişafı naminə gördüyü sadiq işinə görə hər zaman xatırlayacağıq. Onun birinci Avropa Oyunlarının və Avropa Gənclər Olimpiya Festivalının keçirilməsinə verdiyi töhfə Avropa Olimpiya Hərəkatının üzvləri tərəfindən ən yüksək səviyyədə qiymətləndirilmişdir.

Rusiya Olimpiya Komitəsinin adından və şəxsən öz adımdan Azad Rəhimovun ailəsinə, qohumlarına, dostlarına və həmkarlarına dərin hüznlə başsağlığı verirəm.

Onun Avropa idmanının inkişafına çoxillik töhfəsi Olimpiya ailəsinin bütün üzvləri üçün hər zaman mayak olacaq.

Sizin dərdinizə şərikik.

Hörmətlə,
**S.A.Pozdnyakov**
**Rusiya Olimpiya Komitəsinin prezidenti**

*Ötən həftə Azərbaycan ictimaiyyəti və idmanı ağır itki ilə üzləşdi. Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Azad Rəhimov uzun sürən xəstəlikdən sonra 57 yaşında həyatla vidalaşdı.*

*Azad Rəhimovun vaxtsız vəfatı idman ictimaiyyətinin də böyük kədərinə səbəb oldu. Təbii ki, onunla bağlı bir çox idmançıların səmimi xatirələri var. Azad Rəhimovun vaxtsız vəfatından kədərlənən Olimpiya çempionlarımız mərhum nazirlə bağlı səmimi xatirələrini "Olimpiya dünyası" qəzeti ilə bölüşüblər.*

## "Azad müəllimin yoxluğunu qəbul edə bilmirik"

***Fərid Mansurov (Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu):***



- Azad müəllim həqiqətən də, yaxşı insan və gözəl rəhbər idi. Hələ də Azad müəllimin yoxluğunu qəbul edə bilmirik. Hər bir əməkdaşı başa düşür, əziyyətini qiymətləndirir, qayğı göstərirdi. Azad müəllim tək nazir kimi yox, əsl alicənab insan kimi hər bir kəsin qəlbinə yol tapmışdı. O, həmçinin gənclərin və idmançıların yaxın dostu idi. Hər bir idmançı onun xətrini əziz tuturdu. Məhz bu sevgidir ki, bu gün vəfatından sonra insanlar onun yoxluğuna görə kədərlənirlər. Dəfn mərasimindən sonra Azad müəllimin məzarını ziyarət etdim. Həqiqətən də onun artıq aramızda olmamasına inana bilmirik. Son ana qədər bir möcüzə olacağına inansaq da, təəssüf ki, bu, baş vermədi. Allah Azad müəllimə rəhmət eləsin. Ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

## "O, sadəcə nazir deyil, bütün idmançılara dost, sirdaş, qələbəyə həvəsləndirən bir insan idi"

***Elnur Məmmədli (Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu):***

- Bu acı xəbər hər kəs kimi, məni də çox sarsıtdı. Azad Rəhimovun dəfn olunduğu ikinci Fəxri Xiyabana gedib onun məzarına əklil qoydum. Amma etiraf edim ki, hələ də Azad müəllimin dünyasını dəyişdiyini qəbul edə bilmirəm. Mənim Azad müəllimlə bağlı xeyli xatirələrim var. Onlardan biri də Pekin-2008 Yay Olimpiya Oyunlarına təsadüf edir. Azad müəllim həmin ərəfədə 2 il olardı ki gənclər və idman naziri vəzifəsinə təyin olunmuşdu. Azad müəllimin Olimpiya Oyunlarında ilk yarışımdan əvvəl soyunub-geyinmə otağına gəlib, mənimlə etdiyi söhbət bugünki kimi yadımdadır. O, içəri daxil olaraq "Elnur çempion! Mən sənə inanıram. Sən artıq Avropa çempionusan, dünya 2-cisisən. Düzdür, çox həyəcanlıyam, amma sənə inanıram", - sözlərini dedi. Bu sözlər xatirəmdə əbədi həkk olub. O, həmçinin cənab Prezident İlham Əliyevin, Mehriban xanım Əliyevanın zalda olduğunu və mənim var gücümlə güləşəcəyimə əminliyini bildirdi. Mən isə Azad müəllimə narahat olmamasını və layiqincə Azərbaycanı təmsil edəcəyimi demişdim. Bütün mərhələlərdə qalib gəlib, finala yüksəldiyimdə isə Azad müəllim yenidən yanıma gəldi. O, soyunub-geyinmə otağına sevinc hissləri ilə daxil olub, məni qucaqladı. Cənab nazir həmin an mənə "Mən istəyirəm ki, sən çempion olasan", - dedi. Çempion olduqdan sonra Atletlər Kəndinə gedəndə komanda heyətimizin orada qələbəni qeyd etmək üçün yığıldığını və girişdə şəklimin divara vurduğunu görüb çox təsirlənmişdim. Azad müəllim məni yanına dəvət edib qucaqladı və mənimlə fəxr etdiyini bildirdi. O, həqiqətən də idmançılara çox səmimi, dostcasına yanaşır, insana hərtərəfli dəstək olurdu. Hətta biz bəzən Azad Rəhimovun nazir olduğunu unudurduq. Hər bir idmançıya xüsusi qayğı ilə yanaşır, problemimiz olanda



isə dərhal canla-başla həll edirdi. O, sadəcə nazir deyil, bütün idmançılara dost, sirdaş, qələbəyə həvəsləndirən bir insan idi. Azad müəllim çox böyük bir ürəyə sahib, nurlu bir şəxs idi. Onun necə vətənpərvər bir şəxs olduğunu görmək üçün beynəlxalq yarışlarda dövlət himnimizin səsləndiyi zaman kövrəldiyini izləmək kifayət edirdi. Azad Rəhimov dövlət başçımıza, xalqımıza, millətimizə çox sədaqətli bir insan idi.

Allah Azad Rəhimova rəhmət eləsin, ailəsinə səbr versin.

# "ADEL for Tokyo 2020 Olympics" platforması Azərbaycan dilində istifadəyə verilib

Tokio-2020 Yay Olimpiya Oyunlarına gedəcək idmançılar üçün vacib olan "ADEL for Tokyo 2020 Olympics" platforması Azərbaycan dilində istifadəyə verilib. Ümumdünya Antidopinq Agentliyinin tədris platforması olan ADEL tərəfindən hazırlanan bu proqram Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya qazanmış idmançılar və onları müşayiət edəcək köməkçi heyət (məşqçi, həkim və s.) üçün nəzərdə tutulmuş onlayn kursdur.

Azərbaycan Milli Antidopinq Agentliyindən (AMADA) verilən məlumata görə, kursun məqsədi Olimpiya Oyunlarında dopinq nəzarəti ilə bağlı ən vacib məlumatları onlara çatdırmaqdır. Onlayn kursdan keçənlər Tokio-2020 Yay Olimpiya Oyunlarında antidopinq qaydaları, dopinq nəzarəti prosesi, habelə terapevtik istifadə üçün icazə və dərmanların necə yoxlanılması haqqında məlumat əldə edəcəklər. Bu kurs vasitəsilə idmançılar həm də hüquq və vəzifələri, oyunlar zamanı onların üzərində yurisdiksiyası olan təşkilatlar haqqında biliklərini təkmilləşdirmiş olacaqlar.




İnteraktiv onlayn təhsil kursu bir neçə mərhələdən ibarətdir. Hər mərhələdə iştirakçıya vacib biliklər verilir və yekunda biliklərin yoxlanılması üçün suallar olur. Ümumi sualların 80 faizindən çoxunu düzgün cavablandıran şəxslər kursu müvəffəqiyyətlə tamamlamış olur və elektron sertifikat əldə edirlər.

Bu platforma idmançıların Tokio-2020 Olimpiya Oyunlarına hazırlığının ayrılmaz hissəsidir, idmançıların və onların köməkçi heyətinin kurslardan keçməsi vacibdir. Bunun Tokioya yollanacaq idmançılar üçün əhəmiyyətini nəzərə alaraq AMADA idmançıların və onların köməkçi heyətinin kurslardan keçməsi üçün bütün lazımi dəstəyi göstərir. Qadın güləşçimiz səkkizqat Avropa çempionu Mariya Stadnik kursu keçərək sertifikatını alan ilk idmançı olub.

# Bədii gimnastika ulduzları yenidən Milli Gimnastika Arenasında

Son illərdə xarici idmançılar üçün sevimli təlim-məşq və yarış məkanına çevrilmiş Milli Gimnastika Arenası yenidən öz qapılarını dünyaca məşhur bədii gimnastlar üçün açacaq. Azərbaycan Respublikası Nazirlər Kabineti 2021-ci ildə bədii gimnastika üzrə dünya kubokunun mayın 7-9-da mövcud karantin qaydalarına və sanitar-epidemioloji tələblərə uyğun olaraq keçirilməsinə icazə verib. Tokio-2020 Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyan dünya kuboku yarışlarının baş tutması ilə bağlı həm ölkə təmsilçilərimiz, həm də xarici gimnastlar üçün sevindirici olub.

Azərbaycanı bu yarışda Yay Universiadasının gümüş medalçısı, İslam Həmrəyliyi Oyunlarının qalibi, Olimpiya Oyunlarına lisenziya qazanmış Zöhrə Ağamirova, gənclər arasında dünya çempionatının ikiqat mükafatçısı Arzu Cəlilova, eləcə də son Avropa çempionatının üçqat medalçısı, Olimpiya Oyunlarına lisenziya qazanmış qrup hərəkətləri komandası təmsil edəcək. Dünya kubokunda 36 ölkədən qrup komandaları tərkibində 106 (18 qrup) və fərdi proqram üzrə 63 gimnast mübarizə aparacaq.

# Tarixi Avropa çempionatından 55 il ötür

1966-cı il mayın 5-9-da Almaniya Federativ Respublikasının Karlsrue şəhərində sərbəst güləş üzrə Avropa çempionatı keçirilib. Yarışı maraqlı edən səbəblərdən biri isə SSRİ yığma komandasının II Dünya Müharibəsindən sonra ilk dəfə olaraq Almaniyaya səfər etməsi olub. Bu yarışlarda güləşçilər 8 çəki dərəcəsində (52 kq, 57 kq, 63 kq, 70 kq, 78 kq, 87 kq, 97 kq və +97 kq) çempionluq uğrunda mübarizə aparıblar. Yarışlarda 57 kq çəkidə mübarizə aparan Azərbaycan güləşçisi Aydın İbrahimov Avropa çempionu tituluna sahib çıxıb. Aydın İbrahimovla yanaşı, digər sabiq SSRİ yığma komanda üzvləri müvafiq çəki dərəcələrində 5 qızıl medala sahib olublar.

Final görüşləri 9 may tarixinə təsadüf etdiyindən bu idmançıların şərəfinə dövlət bayrağı qalxıb, himn səslənib. Həmin vaxt salondakı tamaşaçılar bu qələbələr üçün 6 dəfə ayağa qalxmalı olublar.

Qeyd edək ki, 2021-ci il mayın 9-da həmin tarixi qitə çempionatının 55 ili tamam olacaq.

# Paytaxtımızda keçirilməsi planlaşdırılan Dünya Kuboku ləğv edildi

Bu il Bakıda keçirilməsi planlaşdırılan güllə və stend atıcılığı üzrə Dünya Kuboku ləğv edilib. Bu barədə Beynəlxalq Atıcılıq İdmanı Federasiyası (ISSF) məlumat yayıb. Səbəb kimi Azərbaycandakı koronavirus pandemiyası ilə əlaqədar vəziyyət və ölkə ərazisində yoluxmuş insanların sayının artması göstərilib. Bunlar nəzərə alınaraq, yarışın Bakıda təşkili uyğunsuz və təhlükəli hesab edilib. ISSF qərardan məyusluğunu bildirib: "Amma başqa həll yolu yox idi. Çünki iştirakçıların sağlamlığı hamımız üçün prioritetdir".

Qeyd edək ki, Dünya Kubokunun 21 iyun - 2 iyulda keçirilməsi nəzərdə tutulmuşdu.

* * *

Mayın 20-dən iyunun 6-dək Xorvatiyanın Osiek şəhərində Tokio Olimpiadasına lisenziya xarakterli stend atıcılığı üzrə Avropa çempionatı keçiriləcək. Qitə turnirində 10, 25 və 50 metr məsafələrdən atəşaçma üzrə yarışlar keçiriləcək. Yarışda Azərbaycanı 6 idmançının təmsil etməsi planlaşdırılır. Belə ki, 4 idmançı dairəvi stend, iki təmsilçimiz isə səngər stendi üzrə mübarizə aparacaq.

# Qadın velosipedçimiz cəzalandırıldı

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) daha bir idmançını cəzalandırıb.

AMADA-dan verilən məlumata görə, bu, qadın velosipedçi Elfanə Camalovadır.

O, nümunə toplanması prosedurasından yayınma, imtina, yaxud nümunəni təqdim etməmə hallarına yol verdiyi üçün 2 il müddətinə diskvalifikasiya olunub.

# Dünya Olimpiya təsnifat turnirində iştirak edəcək güləşçilərimizin adları açıqlandı




Mayın 6-dan 9-dək Bolqarıstanın paytaxtı Sofiyada güləş üzrə dünya Olimpiya təsnifat turniri keçiriləcək. Turnirdə 84 ölkədən 474 idmançı mübarizə aparacaq. Yarışda Azərbaycan idmançıları da təmsil olunacaqlar. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, turnirdə ölkəmizi təmsil edəcək sərbəst güləş üzrə millimiz mayın 3-də Bolqarıstana yollanıb. Sonuncu lisenziya turnirində baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında Georgi Edişeraşvili (57 kq), Abubakr Abakarov (86 kq) və Vahid Qalayev (125 kq) çıxış edəcəklər. Yarışın proqramına əsasən, sərbəst güləşçilər mayın 6-7-də Olimpiya Oyunlarına vəsiqə uğrunda mübarizə aparacaqlar.

Güləşin bu növündə 65, 74 və 97 kiloqram çəki dərəcələrində Olimpiadaya vəsiqə təmin edilib. Şərif Şərifov (97 kq) sonuncu dünya çempionatında, Hacı Əliyev (65 kq) və Hacımurad Hacıyev (74 kq) isə Avropa Olimpiya təsnifat turnirində bu vəzifənin öhdəsindən gəliblər.

Turnirdə ölkəmizi yunan-Roma güləşi yarışlarında isə Murad Məmmədov (60 kq), Rəsul Çunayev (67 kq), Rafiq Hüseynov (77 kq), Murad Lokiayev (97 kq) və Beka Kandelaki (130 kq) təmsil edəcəklər.

Yunan-Roma güləşçilərimizdən yalnız İslam Abbasov (87 kq) Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

Qadın güləşçilərin yarışında isə ölkəmizi Türkan Nəsirova (53 kq), Alyona Kolesnik (57 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (68 kq) və Gözəl Zutova (76 kq) təmsil edəcəklər. Qadın güləşçilərimizdən yalnız səkkizqat Avropa çempionu Mariya Stadnik (50 kq) Tokio Olimpiadasına lisenziya qazanıb.

Qeyd edək ki, Dünya Olimpiya Təsnifat turnirində Olimpiya kateqoriyalı hakim Asif Şirəliyev ədaləti qoruyacaq.

# Sərbəst güləşçilərimiz Rusiyada 2 medala yiyələndilər

Rusiyanın Yakutsk şəhərində Olimpiya, dünya və Avropa çempionu Roman Dmitriyevin xatirə turniri keçirilib. Yarışda gənc sərbəst güləşçilərimiz mübarizə aparıblar. Mübarizəyə dörddəbir finaldan başlayan Sabir Cəfərov (65 kq) iki rəqibi üzərində inamlı qələbə qazanaraq adını finala yazdırıb. Həlledici görüşdə rusiyalı idmançıya məğlub olan güləşçimiz gümüş medalla kifayətlənib.




Digər təmsilçimiz Cəbrayıl Hacıyev (70 kq) ilk iki mərhələdə Rusiya təmsilçilərinə heç bir şans verməyib. Yarımfinalda Qırğızıstan idmançısından da güclü olan C.Hacıyev finala vəsiqə qazanıb. Qızıl medal uğrunda görüşdə erməni əsilli Rusiya idmançısına qalib gələn C.Hacıyev qızıl medal qazanıb.

Beləliklə, 3 güləşçi ilə xatirə turnirinə qatılan komandamız yarışı 1 qızıl və 1 gümüş medalla başa vurub.

# Azərbaycan Voleybol Federasiyasının baş katibi CEV-in plenar iclasında iştirak edib

Azərbaycan Voleybol Federasiyasının baş katibi, Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə Heyətinin üzvü Cəlil Cəfərov qurumun plenar iclasında iştirak edib. CEV-in İdarə Heyəti yeni tərkibdə ilin II toplantısını mayın 1-də İtalyanın Verona şəhərində keçirib. İclasa CEV prezidenti Aleksandr Boriçiç rəhbərlik edib. O, çıxışı zamanı ötən ilin yazından dünyanı bürüyən koronavirus pandemiyasının idmana, o cümlədən voleybola olan mənfi təsirlərindən və onunla mübarizə yolundan, həmçinin gələcək üçün qarşıda duran planlardan danışıb.

CEV prezidenti 2021-ci ilin voleybolsevərlər üçün həyəcanlı bir il olduğunu qeyd edib. Aleksandr Boriçiç bildirib ki, Konfederasiyanı qarşıda Avropa çempionatı, çimərlik voleybolu üzrə qitə birinciliyi və Tokio-2020 Yay Olimpiya Oyunları kimi gərgin yarışlar gözləyir: "CEV və İdarə Heyətinin hər bir üzvü hər zaman voleybolun inkişafı üçün çalışıb və yenə də əlimizdən gələni etməliyik".

Daha sonra CEV prezidenti və İdarə Heyətinin üzvləri mayın 1-də Verona şəhərində keçirilən qadınlar və kişilər arasında Çempionlar Liqasının final oyunlarını izləyiblər. Həlledici matçları qitə qurumunun rəsmiləri ilə birgə Beynəlxalq Voleybol Federasiyasının (FİVB) prezidenti Ari Qraça da canlı izləyib.

Qadınların yarışında "Konegliano" (İtaliya) "VakifBank"ı (Türkiyə), kişilərin yarışında isə ZAKSA (Polşa) "Trentino"nu (İtaliya) məğlub edərək Avropanın ən nüfuzlu klub turnirinin qalibi adına sahib olublar.

# Karate1 Premyer Liqa turniri 2 medalla yadda qaldı

Portuqaliyanın paytaxtı Lissabonda Tokio Olimpiadasına reytinq xalları verən Karate1 Premyer liqa turniri keçirilib. Mötəbər yarışda Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun başçılıq etdiyi 15 idmançıdan ibarət heyət iştirak edib. Milli komandanı kumite üzrə kişilərin baş məşqçisi Qurban Tağıyev, böyük məşqçi Şahin Xudaverdiyev, eləcə də qadınların baş məşqçisi Denis Morozov və kata üzrə baş məşqçi Vahid Ayvazov müşayiət edib.




3 gün davam edən nüfuzlu yarışda komandamız 2 medala sahib çıxıb. Təmsilçimiz Asiman Qurbanlı (+84 kq) qızıl medal uğrunda Gürcüstan idmançısı Qoqita Arkaniaya məğlub olaraq gümüş medalla kifayətlənib.

Heyətində Rövşən Əliyev, Tural Balcanlı, İsmayıl Quliyevin yer aldığı kata komandamız isə bürünc medal uğrunda mübzrizədə Misir yığmasına qalib gəlib.

Nüfuzlu turnir idmançılara Tokio Olimpiadasında iştirak etmək üçün xüsusi reytinq xalları da qazandırıb.

Qeyd edək ki, Premyer Liqanı idarə edən hakimlər arasında beynəlxalq hakimlərimiz Cahangir Babayev və Vüqar Kərimov da yer alıblar.






# “Olimpiya dünyası”nın keçirdiyi tədbirlər sağlam həyat tərzinə xidmət edir

***Qəzetimiz 20 il ərzində idmanın təbliği ilə yanaşı, ölkə və beynəlxalq miqyaslı tədbirlərin keçirilməsinə də xüsusi önəm verib. Müxtəlif layihələrin həyata keçirilməsinə böyük əhəmiyyət verən “Olimpiya dünyası” qəzeti bir sıra ölkədaxili və beynəlxalq miqyaslı yarışların, eləcə də mədəniyyət tədbirlərinin təşkilatçısı olub.***

***Ölkəmizdə idman sahəsində baş verən yenilikləri, böyük idmanda təmsilçilərimizin əldə etdikləri uğurları, bu sahənin inkişaf perspektivlərini daim diqqətdə saxlayan “Olimpiya dünyası” qəzeti bədən tərbiyəsi və idmanın kütləvi xarakter alması üçün təbliğat və təşviqat işlərini genişləndirir. Belə ki, qəzetimiz insanların sağlamlığının qorunmasında, onların asudə vaxtlarının təşkilində önəmli rol oynayan bədən tərbiyəsi və idmanın cəzaçəkmə müəssisələrində də təbliğinə xüsusi diqqət yetirib.***

Milli Olimpiya Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında “Cəzaçəkmə müəssisələrində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, idmana maraqlarının artırılması və vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə birgə görüləcək işlərə dair” müqavilə imzalanmışdır. Bu müqavilədə əksini tapan tədbirlər planına əsasən ayrı-ayrı cəzaçəkmə müəssisələrində görüşlər təşkil edilmişdir. Belə tədbirlərdə tanınmış idmançılarımız və idman rəsmiləri məhbuslarla görüşərək, onlara mənəvi dəstək vermişlər. 20 il ərzində “Olimpiya dünyası”nın təşkilatçılığı ilə keçirilən tədbirləri bir araya toplayaraq cəzaçəkmə müəssələrində təşkil edilən çoxsaylı tədbirləri xronoloji ardıcıllıqla oxucularımıza təqdim edirik.

* * *

“Olimpiya dünyası” qəzetinin 5 illik yubileyi ərəfəsində - 2006-cı ildə ilk belə tədbir Yetkinlik Yaşına Çatmayanların Tərbiyə Müəssisəsində keçirilib. Noyabrın 23-də tərbiyə müəssisəsinin akt zalında “Olimpiya dünyası” qəzetinin kollektivi və bir sıra KİV nümayəndələrinin iştirakı ilə məhkum uşaqlarla görüş təşkil olunub. Görüşdə Ədliyyə Nazirliyi Penitensiar xidmətinin islah işləri və sosial müdafiə şöbəsinin rəisi Rafiq Ramazanov, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti (AİJA) Eldar İsmayılov və Olimpiya çempionu Fərid Mansurov da iştirak ediblər. Yeniyetmələr Olimpiya çempionumuza onları maraqlandıran bir sıra suallarla müraciət ediblər. Tərbiyə olunanlardan Orxan Hüseynov “İdmana gəlişinizin səbəbi nə olub?”, Sərxan Bağırov “Olimpiya çempionunun ən böyük arzusu nədir?”, Teymur Məmmədov “Ən güclü rəqibin kimdir?”, Şəhriyar Hüseynov isə “Ailənizdə daha kim idmanla məşğul olur və ilk dəfə kimə qalib gəlmisiniz?” suallarına görə qiymətli hədiyyələr və diplomlarla təltif olunublar.

ƏFA və “Məşəl” klubları taekvondoçularının nümunəvi proqramla çıxışları da uşaqların üreyincə olub.

Qeyd edək ki, tədbir çərçivəsində stolüstü tennis yarışları da keçirilib. Yarışlara Rizvan Əhədov hakimlik edib. Turnir Heydər Əliyev adına liseyin və cəzaçəkmə müəssisəsinin idmançıları arasında keçirilib. Cəzaçəkmə müəssisəsinin tennisçiləri Rahid Mehdiyev, İmran Məmmədov və Pərviz Muxtarov, müvafiq olaraq, ilk üçlükdə qərarlaşıblar. Qaliblər “Olimpiya dünyası”nın qiymətli hədiyyələri, diplomor və medallarla təltif olunublar. Vasif Abışov, Vüsal Tahirov, Vasif Qasımov, Ağayar Əliyev və Süleyman Hacıyev həvəsləndirici mükafatlarla təltif olunublar. Tədbirin sonunda “Olimpiya dünyası” qəzeti tərəfindən cəzaçəkmə müəssisəsinin rəisi İmran Məmmədov, ƏFA və “Məşəl” klublarının məşqçisi Əvəz Tağıyevə diplom və hədiyyələr təqdim olunub.



* * *

Növbəti tədbir 2007-ci il martın 5-də “Olimpiya dünyası” ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 4 saylı Cəzaçəkmə Müəssisəsində təşkil edilib. 8 Mart-Beynəlxalq Qadınlar Günü ərəfəsində belə bir tədbirin keçirilməsində əsas məqsəd azadlıqdan məhrumetmə ilə bağlı yaranmış gərginliyi aradan qaldırmaq, məhbusların psixoloji durumunu sabit saxlamaq və onların asudə vaxtının maraqlı və səmərəli təşkilinə kömək göstərmək idi. Cəzaçəkmə müəssisəsində voleybol üzrə yarış keçirilib, bu yarışlara tanınmış voleybolçu Alla Həsənova hakimlik edib, qaliblərə və daha əlli məhbusa qadına hədiyyələr təqdim olunub. Tədbir zamanı həmçinin Olimpiya, dünya və Avropa çempionları ilə məhbusların görüşü də keçirilib. Milli Olimpiya Komitəsi tərəfindən penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin kitabxanalarına MOK-un nəşrlərindən nümunələr və bu müəssisənin yeni açılmış trenajor zalına görə idman velosipedi verilib.

* * *

Ənənəsinə sadiq qalan “Olimpiya dünyası” qəzeti Azərbaycan Mətbuat Şurası ilə birgə 2008-ci il oktyabrın 8-də Yetkinlik Yaşına Çatmayanların Tərbiyə Müəssisəsinin akt zalında bir sıra KİV nümayəndələrinin iştirakı ilə tədbir keçirib. Tədbirdə “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyev, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, Azərbaycan Milli Olimpiya Komitəsinin məsul işçisi Nazir Rəhimov, Ədliyyə Nazirliyi Penitensiar Xidməti İdarəsinin rəisi, ədliyyə polkovniki Azər Seyidov, “Sportsman” jurnalının baş redaktoru Rəşad Cavadov, Pekin-2008 Olimpiadasında ölkəmizi hakim kimi təmsil edən respublikanın Əməkdar məşqçisi Hicran Şərifov, XXIX Yay Olimpiya Oyunlarının gümüş mükafatçıları Rövşən Bayramov, Vitali Rəhimov və Yetkinlik Yaşına Çatmayanlar üçün Tərbiyə Müəssisəsinin rəisi İmran Məmmədov iştirak ediblər.

Tədbir iştirakçıları ilk olaraq cəzaçəkmə müəssisəsinin kitabxanası ilə tanış olublar.

Görüşdən sonra yeniyetmələr Olimpiya mükafatçılarına onları maraqlandıran suallarla müraciət ediblər. Onlar gələcəkdə Olimpiya çempionu Elnur Məmmədli ilə görüşmək istədiklərini də bildiriblər. Ən maraqlı suallar üçün onlara hədiyyələr təqdim edilib. Müəssisənin rəhbəri azadlıqdan məhrum edilən Sarvan Ağayevin fəal gənc olmasını diqqətə çatdırıb. O, bu istedadlı gəncin test imtahanı vasitəsilə texnikuma qəbul olunduğunu da deyib. İmran müəllim digər yeniyetmə Denis Orlovun Olimpiya mükafatçılarına həsr etdiyi şeiri oxuyub.

Tədbirin sonunda İmran Məmmədov tərbiyə müəssisəsində cəza çəkən yeniyetmələr adından qonaqlara, Olimpiya mükafatçılarına, “Olimpiya dünyası” qəzetinin və Mətbuat Şurasının rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra stolüstü tennis yarışlarına start verilib. Yarışda Səbail rayonunun 236 saylı orta məktəbin komandası müəssisənin tennisçiləri ilə görüşüblər. Yekun nəticələrə görə 236 saylı orta məktəbin komandası birinci (Eyvaz Rzazadə, Şamxal Məlikzadə, Orxan Əhmədov, Tural Həsənov), cəzaçəkmə müəssisənin komandası ikinci (Elvar Sarıyev, Röyal Vəliyev, Pərviz İbrahimov, Eldar İsmayılov) yeri tutub. Qalib komandalara diplom və medallar təqdim edilib. Yarışda fəal hakimliyə görə 236 saylı məktəbin bədən tərbiyəsi müəllimi Gülbanı Ağayeva təşkilatçılar tərəfindən hədiyyə və diplomla mükafatlandırılıb.









Yarış və tədbirin təşkilində xüsusi fəallığına görə cəzaçəkmə müəssisəsinin rəisi İmran Məmmədov da Mətbuat Şurası və “Olimpiya dünyası” qəzetinin diplom və hədiyyəsinə layiq görülüb.

* * *

Həmin il noyabrın 19-da qəzetimiz Milli Olimpiya Komitəsi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti İdarəsi, “İdman” qəzeti və “Sportsman” jurnalı ilə birgə 2 saylı Cəzaçəkmə Müəssisəsində daha bir idman tədbiri həyata keçirib. Tədbirdə “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyev, Milli Olimpiya Komitəsinin məsul işçisi Nazir Rəhimov, Penitensiar Xidmətin Tərbiyə İşinin Təşkili İdarəsinin rəisi, ədliyyə polkovniki Azər Seyidov, “İdman” qəzetinin baş redaktoru Qabil Mehdiyev, “Sportsman” jurnalının direktoru Saleh Salahzadə, futbolumuzun canlı əfsanəsi Ələkbər Məmmədov, Pekin Yay Olimpiya Oyunlarının qalibi Elnur Məmmədli (cüdo), bürünc mükafatçılar Mövlud Mirəliyev (cüdo) və Şahin İmranov (boks) iştirak ediblər. 2 saylı cəzaçəkmə müəssisənin fəaliyyətində yaxından iştirak edən, məhkumların maariflənməsində öz köməyini əsirgəməyən məhkumlar - Novruz Novruzov, Otos Kensley, Rəsul Süleymani “Olimpiya dünyası” qəzeti tərəfindən qiymətli hədiyyələrlə təltif ediliblər.

Ardınca məhkumlarla jurnalistlər arasında şahmat yarışı keçirilib. Yarışın yekununa əsasən, qalib adını 2 saylı Cəzaçəkmə Müəssisəsinin təmsilçiləri Cəfər Məmmədov, Novruz Novruzov, Laçın Seyidməmmədov qazanıblar.

* * *

2009-cu il iyunun 11-də 15 saylı Cəzaçəkmə Müəssisəsində keçirilən idman tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, ədliyyə nazirinin müavini, ədliyyə general-leytenantı Nazim Ələkbərov, Olimpiya çempionlarımız və mükafatçılarımız, ATƏT-in Bakı ofisinin və Avropa şurasının ölkəmizdəki nümayəndələri iştirak ediblər. Həmin gün 15 saylı cəzaçəkmə müəssisəsində idman zalı, kompüter otağı və ibadət otaqları məhkumların istifadəsinə verilib. Tədbir iştirakçıları stolüstü tennis, bilyard zalı həmçinin güləş, boks və digər idman növləri ilə məşğul olmaq üçün yaradılan şəraitlə tanış olublar. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Milli Olimpiya Komitəsi tərəfindən idman zalına trenajor hədiyyə edib, Azərbaycanın idman tarixindən bəhs edən çoxsaylı kitablar, jurnal və qəzetlər Penitensiar Xidmətin kitabxanaları üçün təqdim olunub.

*(ardı 5-ci səhifədə)*

# OLİMPİYA 20 DÜNYASI





## "Olimpiya dünyası"nın keçirdiyi tədbirlər sağlam həyat tərzinə xidmət edir

(əvvəli 4-cü səhifədə)

2010-cu il aprel ayının 16-da 15 saylı Cəzaçəkmə Müəssisəsində azadlıqdan müvəqqəti məhrum edilənlərlə idman jurnalistləri arasında növbəti şahmat turniri keçirilib. Tədbirdə müəssisənin rəisi Mirsaleh Seyidov, Milli Olimpiya Komitəsinin məsul işçiləri Murad Fərzəliyev, Nazir Rəhimov, Həsənağa Rzayev, "Neftçi" futbol klubunun İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Elnur Əşrəfoğlu, "OlimpSport" jurnalının baş redaktoru Ramin Allahverdi, Azərbaycan Şahmat Federasiyasının baş katibi, beynəlxalq dərəcəli hakim Namiq İsmayılov, oğlanlardan ibarət şahmat yığmamızın baş məşqçisi Fikrət Sideifzadə, "Sportsman" jurnalının icraçı direktoru Saleh Salahzadə və digər şəxslər iştirak ediblər.

Çıxışlardan sonra jurnalistlərlə məhkumlar arasında şahmat yarışına start verilib. Hər komandadan 10 nəfərin iştirak etdiyi yarışın hakimi Fikrət Sideifzadə olub. Namiq İsmayılov yarışın qaydaları barədə iştirakçılara məlumat verib və birinci taxtada ilk gediş edilib. Maraqlı mübarizə şəraitində keçən yarış Cəzaçəkmə Müəssisəsinin komandasının 7:3 hesablı qələbəsi ilə başa çatıb. Yarış başa çatdıqdan sonra qalib komandanın hər bir üzvünə diplom və hədiyyə təqdim edilib. "Neftçi" futbol klubunun İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Elnur Əşrəfoğlu isə klub adından yarışda seçilən məhkumlara futbol topu təqdim edib. Cəzaçəkmə Müəssisəsinin rəisi Mirsaleh Seyidov yarışın təşkilatçılarına, hakimlərə və jurnalistlər komandasının ən yaxşı oyunçusuna məhkumlar tərəfindən hazırlanmış suvenirlər verib.

Qonaqlar Cəzaçəkmə Müəssisəsində fəaliyyət göstərən idman kompleksi və kompyuter otağı ilə tanış olublar. Məlum olub ki, 3 aylıq kompyuter kurslarında məhkumlar üçün ofis proqramları tədris edilir və kursu bitirənlərə müvafiq sertifikat verilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq İdarəsinin regionlar üzrə boş yerləri barədə məlumatlar da kompyuterlərdə yerləşdirilir. Bu cəzasını başa çatdıran məhkumların iş yeri tapmasına kömək edir.

* * *

2010-cu il oktyabrın 4-də Milli Olimpiya Komitəsi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə birgə 6 saylı cəzaçəkmə müəssisəsində idman jurnalistləri ilə azadlıqdan müvəqqəti məhrum edilmiş məhkumlar arasında breyn-rinq intellektual yarışı keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin məsul işçiləri Murad Fərzəliyev, Nazir Rəhimov, Həsənağa Rzayev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Penitensiar Xidmətin tərbiyə işinin təşkili idarəsinin rəis müavini İntiqam Əliyev və digər şəxslər iştirak ediblər.

Jurnalistlərlə məhkumlar arasında keçirilən yarışda heyətində 5 nəfər olmaqla 7 komanda - "Ödərlər", "Möminlər", "Olimp", "Mətbuat", "Kəpəz", "Kainat" və "İdman" komandaları iştirak edib. Yarışın qaydaları haqqında Bakı Şəhər Gənclər və İdman İdarəsinin gənclərlə iş sektorunun müdiri Nəcəf Novruzov məlumat verdikdən sonra ilk mübarizə aparacaq komandalar səhnəyə dəvət olunublar. Mərhələ oyunları başa çatdıqdan sonra üçüncü yer uğrunda "Mətbuat" və "Ödərlər" komandası mübarizə aparıb. Bu görüşdən "Ödərlər" komandası qalib ayrılıb. Final qarşılaşmasında isə "Kəpəz" və "Kainat" komandaları öz intellektual hazırlıqlarını nümayiş etdiriblər. Maraqlı mübarizə şəraitində keçən yarışda "Kəpəz" komandası yarışın qalibi adına layiq görülüb. Yarış başa çatdıqdan sonra ilk üçlükdə yer alan komandaların hər birinə Milli Olimpiya Komitəsi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən diplom və qiymətli hədiyyələr təqdim edilib.

* * *

Milli Olimpiya Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında bağlanmış müqaviləyə uyğun olaraq, növbəti tədbir 2011-ci il aprelin 26-da 9 saylı Cəzaçəkmə Müəssisəsində olub. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəisi Mədət Quliyev, Olimpiya, dünya, Avropa çempionları və mükafatçıları, KİV nümayəndələri iştirak ediblər.

Qonaqlar əvvəlcə Cəzaçəkmə Müəssisəsinin idman zalı ilə tanış olublar. Tədbirdə iştirak edən pouerliftinq üzrə beynəlxalq yarışların qalibi olan idmançılar MOK tərəfindən hədiyyə edilən ştanqla nümunəvi çıxış ediblər. Qeyd edək ki, azadlıqdan müvəqqəti məhrum olunanların idmanla məşğul olması üçün burada lazımi şərait yaradılıb. İdman zalında stolüstü tennis, bilyard stolu, trenajorlar, ağırlıqqaldırma daşları məhkumların fiziki sağlamlığı üçün nəzərdə tutulub. 9 saylı Cəzaçəkmə Müəssisəsində əsaslı təmir işləri aparılıb, səliqə-səhman yaradılıb. Tədbir iştirakçıları müəssisənin əvvəlki görkəmi ilə təmirdən sonrakı vəziyyətini əks etdirən fotostendlə də tanış olublar, məhkumların intellektual səviyyəsinin artırılması üçün nəzərdə tutulan kompyuter otağına baxıblar. Məlumat verilib ki, məhkumlar 3 ay ərzində burada kompüter dərsi keçirlər. Görüş zamanı kompyuter kursunu müvəffəqiyyətlə başa vuran məhkumlara "International Training Service" sertifikatı təqdim edilib.

Çıxışlardan sonra "Neftçi" İSM-in uşu üzrə baş məşqçisi Zahid Vəliyevin rəhbərliyi altında gənc uşuçuların nümunəvi çıxışı olub.

"Neftçi" futbol klubunun veteranlardan ibarət komandası ilə məhkumlardan ibarət komanda arasında keçirilən yoldaşlıq görüşü tədbiri daha maraqlı edib. Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə qalib komandaya MOK-un kubokunu təqdim edib. 9 saylı cəzaçəkmə müəssisəsinin komandasına isə AFFA tərəfindən futbol topları hədiyyə edilib.

* * *

2013-cü il aprelin 2-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidməti və Milli Olimpiya Komitəsi arasında 2013-cü il üzrə birgə imzalanmış tədbirlər planına uyğun olaraq 4 saylı cəzaçəkmə müəssisəsində məhkumlar arasında stolüstü tennis üzrə yarış keçirilib. Tədbirdə ədliyyə mayoru Hikmət Kazımov, "Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini Aslan Şirəliyev çıxış ediblər. Çıxışlar başa çatdıqdan sonra yarışa start verilib. Stolüstü Tennis Federasiyasının məşqçisi, idman ustası Qulu Quliyevin idarə etdiyi yarış maraqlı mübarizə şəraitində keçib. 15 nəfər məhkum qalib adı uğrunda mübarizə aparıb. Yarışın qaliblərinə və digər iştirakçılarına diplom və çoxsaylı hədiyyələr verilib.

* * *

Elə həmin il iyunun 28-də Milli Olimpiya Komitəsi Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Tərbiyə İşinin Təşkili İdarəsi ilə birgə 2 saylı cəzaçəkmə müəssisəsində azadlıqdan müvəqqəti məhrum edilmiş məhkumlar arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibəti ilə breyn-rinq intellektual yarışı keçirilib. Yarışın keçirilməsində əsas məqsəd məhbuslar arasında idmanın kütləviliyini artırmaq, həmçinin onların intellektual cəhətdən inkişaf etməsinə və azad cəmiyyətə inteqrasiyasına kömək etmək olub.

Tədbirdə 2 saylı Cəzaçəkmə Müəssisəsinin rəis müavini, ədliyyə mayoru Ədalət Cəbrayılov, Penitensiar Xidmətin tərbiyə işinin təşkili idarəsinin inspektoru, ədliyyə baş leytenantı Mahir Həsənov, "Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini Aslan Şirəliyev və digər şəxslər iştirak ediblər.

Çıxışlardan sonra məhkumlar arasında intellektal yarışa start verilib. Yarış zamanı məhkumlar intellektual cəhətdən hazırlıqlı olmalarını nümayiş etdiriblər. Belə tədbirlər azadlıqdan müvəqqəti məhrum edilmiş insanlara mənəvi dəstək verib. Gərgin keçən bilik yarışmasında qalib gələn komandalar diplomla mükafatlandırılıblar.

* * *

2013-cü il iyulun 30-dan avqustun 2-dək Milli Olimpiya Komitəsi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin birgə layihəsi əsasında 15 saylı cəzaçəkmə müəssisəsində mini-futbol turniri təşkil olunub. Turnir Ədliyyə Nazirliyinin yaranmasının 95 illiyinə həsr olunub. Yarış 1, 6, 10 və 15 saylı cəzaçəkmə müəssisələrinin əməkdaşları arasında təşkil olunub. Matç yeni istifadəyə verilmiş süni meydançada keçirilib. 3-cü yer uğrunda oyunda 6 və 10 saylı cəzaçəkmə müəssisələrinin komandaları qarşılaşıblar. Birincilərin üstünlüyü şəraitində keçən oyun onların 3:0 hesablı qələbəsi ilə başa çatıb. Həlledici mərhələdə isə 1 və 15 saylı cəzaçəkmə müəssisələrinin komandaları münasibətlərinə aydınlıq gətiriblər. Matç 1 saylı cəzaçəkmə müəssisəsinin 4:0 hesablı qələbəsi ilə yekunlaşıb.





Final mərhələsindən sonra mükafatlandırma mərasimi keçirilib. Mərasimdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tərbiyə işinin təşkili idarəsinin rəis müavini, ədliyyə polkovnik-leytenantı İntiqam Əliyev, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülov, 15 saylı cəzaçəkmə müəssisəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Raqif Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar, xatirə hədiyyələri və kubok təqdim edilib.

Qeyd edək ki, oyunları AFFA-nın hakimi Heydər Quliyev idarə edib.

* * *

2013-cü il sentyabrın 18-də Milli Olimpiya Komitəsi və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin birgə layihəsi əsasında 1 saylı Cəzaçəkmə Müəssisəsində də mini futbol turniri keçirilib.

Yeni mövsümün başlanmasına həsr olunan turnirdə 1 saylı Cəzaçəkmə Müəssisəsinin 8 komandası qalib adı uğrunda mübarizə aparıb. Turnirin finalında 2-ci və 7-ci dəstənin komandaları münasibətlərinə aydınlıq gətiriblər. Hər hissəsi 30 dəqiqə olan matç maraqlı mübarizə şəraitində keçib. Yekunda rəqibinə 8:5 hesabı ilə qalib gələn 2-ci dəstə komandası çempion adını qazanıb.

Final mərhələsindən sonra mükafatlandırma mərasimi keçirilib. Mərasimdə 1 saylı Cəzaçəkmə Müəssisəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Fikrət Qafarov, rəis müavinləri - ədliyyə polkovnik-leytenantı Elxan Bəylərov, ədliyyə polkovnik-leytenantı Abas Hüseynov, ədliyyə mayoru Xaləddin Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

Çıxışlardan sonra qaliblər təşkilatçılar tərəfindən diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.

Ümumiyyətlə "Olimpiya dünyası" qəzeti 20 il ərzində idmanın və Olimpiya Hərəkatının təbliği ilə yanaşı, çoxsaylı rəngarəng tədbirlərin də təşkilatçısı olub. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində keçirilən tədbirlər də ölkəmizdə idmanın və Olimpiya Hərəkatının cəzaçəkmə müəssisələrindəki soydaşlarımız arasında təbliğinə xidmət edib.

Yubiley - 70

**Boks üzrə SSRİ idman ustası, Beynəlxalq Həvəskar Boks Assosiasiyası (AİBA) və Avropa Həvəskar Boks Assosiasiyasının (EABA) beynəlxalq dərəcəli hakimi, Milli Olimpiya Komitəsinin İdman İdarəsinin baş məsləhətçisi Nazir Rəhimovun mayın 6-da 70 yaşı tamam olur. Ömrünün ən gözəl çağlarını boksa həsr edən təcrübəli mütəxəssis bu idman növündə öz sözünü deyə bilib. Onun Azərbaycanda boks idman növünün inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək şəkildə qiymətləndirilib. Nazir müəllim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2007-ci ildə “Tərəqqi” medalına, 2012-ci ildə isə “Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi” fəxri adına layiq görülüb. O, həmçinin 2011-ci ildə Gənclər və İdman Nazirliyi tərəfindən Fəxri bədən tərbiyəsi və idman işçisi adı ilə təltif olunub. İdman sahəsində müxtəlif vəzifələrdə çalışan Nazir müəllim öz şəxsi keyfiyyətləri ilə də fərqlənir. Hadisələrə obyektiv yanaşan, geniş dünyagörüşünə malik olan müsahibimizlə söhbət zamanı maraqlı məqamlara toxunduq. Uzun illər idman sahəsində əldə etdiyi təcrübədən danışan Nazir müəllimlə müsahibəni oxucularımıza təqdim edirik.**

# Nazir Rəhimov:
# “Ömrümün 57 ilini idmana həsr etmişəm”



***- Nazir müəllim, keçidiyiniz həyat yolu çox maraqlı və zəngin hadisələrlə yadda qalıb. Ömrün 70-ci baharında daha çox nəyi xatırlamaq istərdiniz?***

- Həyatımın əsas hissəsi idmanla bağlıdır. Belə ki, 70 illik ömrümün 57 ilini idmana sərf etmişəm. Söhbətə elə idmana gəlişimlə başlamaq istəyirəm. Yasamal rayonunun (keçmiş Oktyabr rayonu)199 saylı orta məktəbində təhsil alırdım. Məktəbdə oxuduğum illərdə idmanla məşğul olmaq istəyirdim. Həmid Zalov adlı idman müəllimim var idi. Ona deyirdim ki, müəllim, məni də idman bölməsinə yazdır. Günlər bir-birini əvəz edirdi. Həmin müəllimdən sonra soraq yox idi. Nəhayət, bir gün o dedi ki, saat 4-də gəl idman zalımıza, səni idman bölməsinə yazdıracağam. Saat 4-ü gözləyənədək, özümə yer tapa bilmirdim. Evdə anama dedim ki, müəllim məni idmana yazdıracaq. Soruşdu ki, nə idmanıdı? Dedim ki, bilmirəm. Müəllim dediyi kimi, saat 4-də məktəbimizin idman zalına gəldim. Adını bilmədiyim məşqçi yeni gələnlərlə tanış olub, adımızı dəftərinə yazdı. Bir neçə gün adını bilmədiyim idman növü ilə məşğul oldum. Bu danışdıqlarım 1964-cü ildə baş verib. Sonradan bildim ki, məni akrobatika bölməsinə yazdırıblar. Düzünü deyim ki, o vaxta qədər mən heç akrobatikanın nə olduğunu bilmirdim, hətta bu sözün mənasını da anlamırdım. Amma idmana olan həvəsimə görə akrobatika ilə məşğul olurdum. Onu da deyim ki, akrobatikanın yerinə istənilən idman növü olsaydı da məşğul olacaqdım. Akrobatikaya marağım getdikcə artırdı. Təsəvvür edin ki, adının mənasını belə bilmədiyim bu növdə idman ustalığına namizəd proqramı ilə çıxış etməyə başladım. İki dəfə respublika və Bakı birinciliyinin qalibi oldum. 1969-cu ildə məktəblərarası spartakiadaya getməli idim. Lakin yığmanın məşqçisi ilə aramızda yaranan narazılığa görə bu idmandan uzaqlaşdım.

***- Eşitdiyimizə görə, rəssamlığa həvəsiniz böyük olub. Bəs bu sənəti niyə davam etdirmədiniz?***

- Bəli. Akrobatika ilə yanaşı, Yuri Qaqarin adına Pionerlər evində rəssamlıq bölməsinə yazılmışdım. Rəssamlığa böyük həvəs göstərirdim. Akrobatika, rəssamlıqla paralel olaraq, 1966-cı ildən boks bölməsinə də yazılmışdım. Aydındır ki, bütün bunlara vaxt çatdırmaq qeyri-mümkün idi. Bu 3 bölmədə məşğələlər mənim dərsə davamiyyətimə və qiymətlərimin aşağı düşməsinə səbəb oldu. Atam mənə dedi ki, eyni vaxtda bir neçə iş görə bilməzsən. Məhz buna görə də 1969-cu ildən ancaq boksla məşğul olmağa başladım. Həmin dövrdə Bakı və respublika birinciliyinin qalibi oldum. Boksda ilk məşqçim Mirzə Qafarov olub. Sonradan yaşayış yerimizi dəyişməklə əlaqədar olaraq məşqçim ağır çəkidə uzun müddət uğurla çıxış etmiş SSRİ-nin Fəxri idman ustası məşhur boks mütəxəssisi Nadir Abbasov olmuşdu. 1973-cü ildən isə Bədən Tərbiyəsi İnstitutunda təhsil alanda məşqçim SSRİ idman ustası, ADBTİA-nın kafedra müdiri, dosent Hacı Məmmədov oldu.

***- Bildiyimizə görə ailə həyatınızı tələbəlik illərində qurmusunuz.***

- Mənim idmana ola marağım hədsiz idi. Gələcəyimi idmansız təsəvvür etmirdim. 2 illik həqiqi hərbi xidməti başa vurduqdan sonra 1973-cü ildə Bədən Tərbiyəsi İnstitutuna daxil oldum. Yeri gəlmişkən, deyim ki, institutu əla qiymətlərlə bitirmişəm. Tələbəlik illərində boks üzrə yığma komandanın üzvü olduğuna görə, məni heç vaxt tələbə inşaat dəstəsinə aparmayıblar. Ali məktəbdə boksla ciddi məşğul olurdum. 1973-cü ildə Qırğızıstanın paytaxtı Frunze şəhərində “Spartak” İC Mərkəzi Şurasının SSRİ birinciliyi keçirildi və mən həmin yarışda üçüncü oldum. Bundan başqa, bir sıra ümumittifaq və respublika yarışlarında da uğurlar qazandım. Üçüncü kursu bitirdikdən sonra ailə həyatı qurdum. 1976-cı ildə atam rəhmətə getdiyinə görə əyani təhsil almaqla bərabər işləməyə məcbur oldum. 1977-ci ildə ilk övladım - oğlum dünyaya gəldi. Aldığım 56 manat əlaçı təqaüdü ilə yaşamaq çox çətin idi. Buna görə əyani təhsil ala-ala 2-ci və 3-cü növbə Bakı karton tarası fabrikində işləməyə başladım. 1977-ci ildə ali təhsili başa vurduqdan sonra institutda məni müəllim saxladılar. Etiraf edim ki, burada işləyərkən maddi vəziyyətim o qədər də yaxşı deyildi. Aldığım məvacib ailəmi saxlamağa azlıq etdiyinə görə institutdan çıxıb daha yüksək maaşlı iş axtarmağa məcbur oldum. Bakı Şəhər Bədən Tərbiyəsi və İdman Komitəsində baş təlimatçı-müəllim işləməklə bərabər Pedaqoji institutda (V.İ.Lenin adına APİ) və Şəhər Uşaq Gənclər İdman Məktəbində boks məşqçi-müəllim kimi fəaliyyət göstərməyə başladım. Rəhbərliyin mənə inamı sayəsində 7 illik iş fəaliyyətim zamanı boks, ağırlıqqaldırma, qılıncoynatma, velosiped idmanı üzrə bir sıra ümumittifaq səviyyəli yarışların keçirilməsinə nail oldum.

***-Yəqin ki, boks hərbi xidmət dövründə də köməyinizə çatıb.***

- 1969-cu ildə orta məktəbi bitirdim. Bir il sonra hərbi xidmətə getdim. Bakıda məni idman tağımına götürürdülər, amma mən Azərbaycandan kənarda hərbi xidmətdə olmaq, dünyagörüşümü artırmaq istəyirdim. Özüm boksla məşğul olmaqla bərabər, həm də xidmətdə olan əsgərlərə məşq keçirdim. Hərbi xidmətdə olduğum illərdə iki dəfə Moskva hərbi dairəsinin çempionu oldum. O dövrlərdə yetirmələrimdən biri ikinci, üçü isə üçüncü yerə çıxdı. Xidmətdən qayıtdıqdan sonra “Dinamo” İdman Cəmiyyətində fəxri idman ustası, ağır çəki dərəcəsində dəfələrlə Azərbaycan çempionu, professor Nadir Abbasovun rəhbərliyi altında məşq etməyə başladım. 1972-ci ildə Tallin şəhərində təşkil olunan yarışda üçüncü yerə layiq görüldüm.

***- Azərbaycanda ilk boks məktəbi yaradıldı və ilk direktoru da Siz oldunuz. Bu barədə bir qədər ətraflı danışardınız.***

- Bir gün “Məhsul” İC Respublika Şurasının sədri mərhum Şövkət Orduxanov məni öz yanına çağırdı. Şövkət müəllim mənə idman məktəbinin direktoru işləmək vəzifəsini təklif etdi. Həmin məktəbdə boksdan başqa 17 idman növü üzrə məşqlər keçirilirdi. Düzü, edilən təkliflə əvvəlcə razılaşmadım. Bir aydan sonra Şövkət müəllim ikinci dəfə məni yanına çağırdı və dedi ki, boks üzrə yeni məktəb açırıq və səni həmin məktəbə direktor vəzifəsinə dəvət edirəm. Bu təklif məni təəccübləndirdi. Çünki o vaxt respublikada boks məktəbi yox idi və bu məktəbi yaratmaq üçün maddi-texniki baza, idman avadanlıqları olmalı idi. Şövkət Orduxanov bildirdi ki, sən razılıq versən, lazım olan şərait yaradılacaq. Yasamal rayon 13 saylı məktəbin akt zalını göstərdilər və dedilər ki, bura boks zalı olacaq. Düzü, tərəddüd içində qalmışdım. Çünki məktəb yaratmaq üçün xeyli maddi vəsaitə ehtiyac duyulurdu. Amma mən boks məktəbinin fəaliyyətə başlamasını çox istəyirdim. Nəhayət, bütün məsələlər həll olundu və 1984-cü ildə Azərbaycanda ilk yaradılan boks məktəbinin (Respublika İxtisaslaşmış Olimpiya Ehtiyatları Uşaq - Gənclər İdman Məktəbi) direktoru təyin edildim.



***- Fəaliyyətiniz təkcə paytaxtı əhatə edirdi?***

- Direktor təyin olunduqdan sonra məktəbə 17 məşqçi dəvət etdim. İstəyirdim ki, bölgələrimizdə boksun inkişafı üçün hər cür şərait yaradılsın. “Məhsul” İC Respublika Şurasının idman məktəbləri şöbəsinin müdiri Vaqif Əliyevin yaxından köməkliyi nəticəsində bölgələrdə boksun təbliği üçün məktəbin filiallarını açmağa müəssər olduq. Gəncə, Sumqayıt, Lənkəran, Astara, Cəlilabad, Quba, Qax, Biləsuvar, Siyəzən, Tovuz və s. şəhər və rayonlarda ümumilikdə 17 rayon boks məktəbinin filiallarını təşkil etdik. Bir sözlə, boksun inkişafı üçün əlimdən gələni əsirgəmirdim.

***- Nazir müəllim, ədəbiyyata, incəsənətə maraq Sizdə haradan qaynaqlanıb ?***

- Orta məktəbdə dil ədəbiyyat müəllimlərim bu sahəni mənə sevdirə biliblər. Bakı idman komitəsində çalışdığım dövrdə mütəmadi olaraq “İdman”, “Bakı”, “Azərbaycan gənclər” və sair qəzetlərlə əməkdaşlıq edirdim. Onlar üçün idman yarışlarının nəticələrini məqalə formasında yazıb təqdim edirdim və əvəzində yaxşı qonorar alırdım (gülür). Hələ idmana gəlməmişdən qabaq mən günümü saatlarla kitabxanaların oxucu zalında keçirirdim. Şeir yazmaq qabiliyyətim yoxdur, ancaq şeir dinləməyin dəlicəsinə aşiqiyəm.

Rəssamlarımızın və heykəltəraşlarımızın əsərlərinə baxanda ruhən dincəlirəm. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin xətti ilə keçirilən “Olimpiya, İncəsənət və idman” müsabiqələrinin yerli mərhələlərinin təşkili mənə həvalə olunmuşdur. Elə buna görə rəssamlar və heykəltəraşlarla dostluq əlaqələrim var. Hərdən çox yorğun olanda dostluq əlaqələrim olan rəssamlara və heykəltaraşlara zəng edib onların emalatxanalarına gedirəm. Orada onların əsərlərinə baxanda xeyli dincəlirəm. Mən o əsərləri seyrəm və bəyənirəm ki, onlar məni düşündürə bilir. Bundan zövq alıram. Musiqini, xüsusilə muğamlarımızı çox sevirəm.

***- Yubiley ərəfəsindəsiniz. Həyatınız idmanla əhatələnib. Bu seçiminiz həyatınızda böyük bir dönüş edib. Bir sözlə, idman sizə nə verib?***

- Bir neçə gündən sonra 70 yaşım tamam olacaq. Özümü çox sağlam hiss edirəm. Nəvələrimlə birlikdə idmanla məşğul oluram. Sağlam həyat tərzi yaşayıram. Bu vaxta qədər spirtli içki və tütündən uzaq durmuşam. Övladlarım da bu vərdişlərdən uzaqdırlar. Ola bilər ki, sağlam və gümrah qalmağımın bir səbəbi də budur. Ailəmdə formalaşdırdığım düzgün təlim-tərbiyə əsas meyarlardan biridir. Gözəl ailə yaşamaq üçün əsas şərtdir. Bu illər ərzində Azərbaycan idmanının inkişafında, uşaq və gənclərimizin fiziki cəhətdən sağlam böyüməsində əməyim olubsa, buna görə özümü xoşbəxt sayıram.

***- Nazir müəllim, yaxşı olardı ki, ailəniz, övladlarınız barədə məlumat verərdiniz.***

- 1976-cı ildə ailə qurmuşam. Həyat yoldaşım ixtisasca həkim-terapevtdir. Azərbaycan Tibb Universitetinin məzunudur. Hazırda həkim işləyir. 2 oğlum, 1 qızım var. Hər 3-ü ali təhsillidir. 3 nəvəm var. Böyük nəvəm Murad 10-cu sinifdə, Elmir 4-də, Şükufə isə 2-ci sinifdə təhsil alır. Hər üçü dərs əlaçılarıdır. Məni yaşadan, sevincimə rəng qatan nəvələrimdir. Hesab edirəm ki, cəmiyyətimizə sağlam, layiqli övladlar yetişdirmişəm.

***- Nazir müəllim, işdənkənar vaxtınızı necə keçirirsiniz?***

- Ümumiyyətlə, mənim demək olar ki, boş vaxtım olmur. Evdə icrası tələb olunan işləri görməkdən həzz alıram. Axşam, üstü həyətdə idman hərəkətləri edirəm. Televizora ancaq xəbərlər proqramına və bir də muğam konsertləri və verlişləri olanda baxıram. İdman, siyasət, gündəlik hadisələr və xəbərlərlə bağlı son məlumatları sosial şəbəkələr vasitəsi ilə alıram. “Olimpiya dünyası” qəzetinin hər buraxılışını əvvəldən axıra kimi oxuyuram. İdman saytlarını izləyirəm. Bundan başqa, hər gün sübh namazından sonra müqəddəs kitabımız “Quran-i-Kərim”i oxuyuram. Mən Allahımdan çox razıyam. Mənə hər şey verib. Sağlam ailəm, gözəl tərbiyəli balalarım, başımın tacı nəvələrim var. Şükür Allaha hələ ki sağlamlığımdan ciddi şikayətim yoxdur. Yeganə problemim vaxtla, zamanla bağlıdır. Vaxtın azlığından şikayətim var. (gülür)



***- Nazir müəllim, Həcc ziyarətində olmusunuz. Həmin anları necə xatırlayırsınız?***

- Tanrı mənə belə bir imkanı iki dəfə nəsib edib. Həmin anları sözlə ifadə etmək çətindir. Həcc ziyarətindən sonra insan daxilən daha rahat olur. Elə bil hər şeyə yenidən başlayır, saflaşır və yüngülləşirsən. Həyata və insanlara olan baxışın daha da dəyişir, etdiyin səhvləri bir daha təkrarlamırsan. Ümumiyyətlə, Həcc ziyarətinə getməsən də belə, insanlıq hissini daim əsas götürməlisən. Kiminsə haqqına girib, nahaq işlər görməməlisən. Belə olanda insanın özünə qarşı məsuliyyəti artır.

Yubileyimin bu müqqədəs Ramazan ayına təsadüf etdiyi üçün özümü çox xoşbəxt hesab edirəm.

***Anar Əhmədov***

***P.S.** Nazir müəllimi 70 illik yubileyi münasibətilə “Olimpiya dünyası” qəzetinin çoxsaylı oxucuları adından ürəkdən təbrik edir, ona Allah Talanın qismət etdiyi ömrü sağlam, cansağlığı ilə, mənalı yaşamağı arzulayırıq.*

## FUTBOL

*Aprelin 29-da futbol üzrə Azərbaycan Kubokunda finalçıların adına aydınlıq gəlib. Həlledici qarşılaşma "Sumqayıt" və "Keşlə" komandaları arasında olacaq. Yarımfinalın cavab oyununda "Qarabağ"ı məğlub edən "Sumqayıt" həlledici qarşılaşmaya vəsiqə qazanıb. Matçın əsas və əlavə vaxtı ilk qarşılaşmadakı kimi qolsuz başa çatdığından qalib penaltilər seriyasında müəyyənləşib. Burada daha dəqiq oynayan (5:4) qonaq komanda tarixində 2-ci dəfə finala yüksəlib.*




# Azərbaycan Kubokunda finalçılar müəyyənləşdi

"Qarabağ"ın heyətində 11 metrlik cərimə zərbələrini Maksim Medvedev, Toral Bayramov, Qara Qarayev və Xayme Romero dəqiq yerinə yetiriblər. Patrik Andradenin zərbəsini qonaqların qapıçısı Aydın Bayramov geri qaytarıb. Kevin Medinanın vurduğu top isə qapı tirinə tuş gəlib.

"Sumqayıt"da isə Cəmaləddin Xocaniyazov, Vurğun Hüseynov, Xəyal Nəcəfov, Höccət Haqverdi və Vüqar Mustafayev penaltini qola çevirib. Elvin Məmmədovun zərbəsi isə qapı tirindən qayıdıb.

Günün ikinci cavab oyununda "Zirə" "Keşlə"ni qəbul edib.

Gərgin mübarizə şəraitində keçən qarşılaşmada qonaqlar qələbə qazanıblar. Görüşdə hesab 48-ci dəqiqədə açılıb. "Keşlə"nin heyətində Şəhriyar Əliyev avtoqol müəllifi olub.

Matçın 66-cı dəqiqəsində Sezar Meza Kolli hesabı bərabərləşdirib. 30 yaşlı paraqvaylı yarımmüdafiəçi 90+1-ci dəqiqədə penaltini dəqiq yerinə yetirib.

"Zirə" ilk görüşdə 2:1 hesablı qələbə qazandığından, matçda əlavə vaxt oynanılıb. 92-ci dəqiqədə Sezar Meza Kolli özünün və komandasının üçüncü qoluna imza atıb. Görüşün 112-ci dəqiqəsində Klesio Bauk fərqi azaltsa da, "Keşlə" yekunda 3:2 hesablı qələbəyə sevinib.

Beləliklə, "Keşlə" tarixində 6-cı dəfə Azərbaycan Kubokunun finalına vəsiqə qazanıb.

Qeyd edək ki, final oyunu mayın 24-də "Bank Respublika Arena"da təşkil olunacaq.

# Azərbaycanın cüdo üzrə məşqçiləri ordenlə təltif ediliblər

*Yaponiya hökuməti tərəfindən Azərbaycandan iki nəfərin "2021-ci il Xarici vətəndaşlar üçün Orden-Yaz kateqoriyası" üzrə ordenlə təltif olunması qərara alınıb.*



Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, Kanokan-TT Peşəkar Cüdo İdman Klubunun prezidenti Tərlan Həsənov və Paralimpiya cüdosu üzrə Azərbaycan yığma komandasının keçmiş baş məşqçisi Əhmədddin Rəcəbli Gümüş Şüalı Gündoğar Ordeni ("The Order of the Rising Sun, Silver Rays") ilə təltif olunublar.

Qeyd edək ki, T.Həsənov Azərbaycan Respublikasının ilk cüdoçularından biri olaraq, 1972-ci ildən bəri Azərbaycanda cüdo üzrə məşqçi kimi çalışıb, 100 nəfərdən çox olimpiya idmançısı daxil çoxsaylı istedadlı cüdoçular, 3 beynəlxalq dərəcəli cüdo hakimi, çoxsaylı cüdo məşqçiləri yetişdirib. Azərbaycanda cüdo məşqçisi olaraq ən uzun müddət fəaliyyət göstərən şəxslərdən biri kimi, cüdonun inkişafına əvəzsiz töhfə verib.

Paralimpiya cüdosu üzrə Azərbaycan yığma komandasının keçmiş baş məşqçisi Əhmədddin Rəcəbli Azərbaycanda cüdonun yayılmasının ilk günlərindən fəaliyyət göstərərək, cüdo məşqçisi kimi 500 nəfərdən çox cüdoçu yetişdirib. Paralimpiya cüdosu üzrə ikiqat qızıl medal sahibi İlham Zəkiyevin 2004-cü il Afinada baş tutmuş XII Yay Paralimpiya Oyunları və 2008-ci il Pekində keçirilmiş Yay Paralimpiya Oyunlarında 100 kq çəki dərəcəsində qızıl medal qazanmasında əvəzsiz rol oynayıb və bununla Azərbaycanda paralimpiya cüdosunun yayılmasına böyük müsbət təsir göstərərək, ölkədə cüdo və paracüdonun inkişafına əvəzsiz töhfə verib.

Xarici vətəndaşlar üçün Orden Yaponiya ilə dostluq əlaqələrinin inkişafında diqqətəlayiq əməyi olmuş xarici vətəndaşlara Əlahəzrət İmperatorun adından təqdim olunur.

Yaponiyanın Azərbaycandakı səfiri tərəfindən orden sahiblərinin ordenlə təltif olunması və ordenlə bağlı diplomun təhvil verilməsi üçün təltifetmə mərasiminin keçirilməsi planlaşdırılır.

# *AMPK-nın prezidenti IBSA-nın idman direktoru ilə görüşüb*

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov və Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının (IBSA) idman direktoru Yanoş Tardoş arasında görüş olub.

AMPK-da keçirilən görüşdə Bakıda təşkil olunacaq paracüdo üzrə Qran-Pri yarışlarına hazırlıq barədə müzakirələr aparılıb.

Komitə prezidenti İ.Rəhimov bildirib ki, belə mötəbər tədbirin yenidən Bakıda baş tutması sevindirici haldır. Qran-Prinin yüksək səviyyədə keçirilməsi üçün təşkilat komitəsi yaradılıb. Hazırlıq işləri yaxın günlərdə tam yekunlaşacaq.

İ.Rəhimov turnirin ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına, sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçıların iştirakı olmadan keçiriləcəyini vurğulayıb.

Komitənin baş katibi Kamal Məmmədov görüş zamanı yarışa gələcək qonaqların məskunlaşacağı yer, Qran-Prinin keçiriləcəyi Heydər Əliyev adına İdman Sarayı, eləcə də idmançılar üçün təşkil olunacaq tibbi təsnifata olan hazırlıq barədə məlumat verib.

IBSA-nın idman direktoru Y.Tardoş komitə rəhbərliyinə dəvət üçün təşəkkürünü bildirib. O, AMPK-nın IBSA ilə əməkdaşlığını yüksək qiymətləndirərək deyib ki, Qran-Prinin yüksək səviyyədə təşkil olunması üçün təşkilat komitəsinə öz dəstəyini verəcək.

Daha sonra tərəflər gələcək əməkdaşlıq ilə bağlı bir sıra məsələləri müzakirə ediblər.

Qeyd edək ki, mayın 25-26-da Bakıda keçiriləcək Qran-Pri Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına reytinq xalı qazandırır.

## *Millimiz F qrupunda yarışacaq*

Qadın futbolçulardan ibarət yığmalar arasında 2023-cü ildə Avstraliya və Yeni Zelandiyada keçiriləcək dünya çempionatının Avropa zonası üzrə seçmə mərhələsinin püşkü atılıb. UEFA-nın Nyon şəhərindəki mənzil-qərargahında keçirilən püşkatmada millimizin də rəqibləri müəyyənləşib.



Püşkatmaya 4-cü səbətdən qoşulan Azərbaycan yığması Danimarka, Rusiya, Bosniya və Herseqovina, Malta, Monteneqro seçmələri ilə E qrupuna düşüb.

Qeyd edək ki, seçmə mərhələnin oyunları bu ilin sentyabrında start götürəcək və 2022-ci ilin avqustunadək davam edəcək. Dünya çempionatı 2023-cü il 10 iyul - 20 avqustda təşkil olunacaq.

## Xəbərlər

# Vətən müharibəsinin iştirakçısı ilə görüş olub



Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsində Vətən müharibəsinin iştirakçısı, WKF karate üzrə idmançı Əli Allahverdizadə ilə görüş olub. Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, görüşdə Baş İdarənin rəisi Həmid Nəsirov, idarənin əməkdaşları, Vətən müharibəsi iştirakçısı Əli Allahverdizadə və WKF karate idman növü üzrə məşqçi-müəllim Ziya Namazov iştirak edib.

Vətən müharibəsi iştirakçısı olan Əli Allahverdizadə görüş zamanı döyüş xatirələrindən danışıb. Müharibə iştirakçısı döyüşlərdə yüksək əhval-ruhiyyə ilə iştirak etdiklərini, hər gün qələbə qazanaraq necə irəli gedərək düşməndən işğal altında olan torpaqlarımızı azad etdiklərindən söhbət açıb.

Baş İdarə rəisi Həmid Nəsirov görüş zamanı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsinin şanlı qələbə ilə başa çatmasından, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusunun işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etməsindən və ordumuzun böyük zəfərə imza atmasından bəhs edib.

Qeyd edək, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Əli Allahverdizadə "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Qeyd edək ki, Əli Allahverdizadə idmançıdır və WKF karate idman növü ilə məşğuldur. O, 2015-ci ildə respublika çempionatında 57 kq çəki dərəcəsində birinci, həmin ildə "Baku Open" turnirində ikinci, 2018-ci ildə Arpaçay turnirində 68 kq çəki dərəcəsində üçüncü yerə layiq görülüb.

# Gəncədə tikilməkdə olan İdman Sarayına baxış keçirilib



Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən Gəncədə tikilməkdə olan İdman Sarayına baxış keçirilib.

Görüşdə Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov, Gəncə Şəhər İcra Hakimiyyətinin Baş memarı, Baş İdarənin aidiyyəti əməkdaşları, həmçinin Gəncədə fəaliyyət göstərən idman müəssisələrinin rəhbərləri və məşqçi-müəllimlər iştirak ediblər. İdman Sarayını tikən podratçı şirkətin rəhbəri layihə haqqında ətraflı məlumat verib və tikilməkdə olan müxtəlif idman zalları ilə tanış edib.

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəhbərliyi və idmançılar iştirak etdikləri yarış təcrübələrindən irəli gələrək idman zallarının gələcəkdə istifadəyə daha da səmərəli və Beynəlxalq standartlara uyğun tikilməsi üçün öz tövsiyələrini veriblər. Həmçinin idman sarayına baxışda iştirak edən şəxslər fikir mübadiləsi aparıblar.

İkimərtəbəli idman qurğusunda böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq şahmat turnirlərinin keçirilməsi üçün zal, şahmat, güləş, boks və digər idman növləri üzrə məktəblər, boulinq və atıcılıq zalları, istirahət və iaşə obyektləri fəaliyyət göstərəcək. İdman sarayı ən müasir avadanlıqla təchiz olunacaq. İdman Sarayının 2022-ci ilin sonuna kimi istismara verilməsi nəzərdə tutulur. İdman qurğusunun ümumi ərazisinə, binanın tutumu və həcminə görə Qafqazda ən böyük idman müəssisəsi hesab olunur.

Qeyd edək ki, İdman Sarayı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci ildə imzaladığı Sərəncama əsasən 3 hektara yaxın ərazidə tikilir.

# Dünya idmanı



## Dünya çempionunun növbəti hədəfi

Boks üzrə keçmiş dünya çempionu Mayk Tayson sentyabr ayında eks-çempion Lennoks Lüislə qarşılaşmağı planlaşdırır. “Mən Lüislə döyüşməyi planlaşdırıram”, - deyə idmançı açıqlamasında qeyd edib.

Xatırladaq ki, 2002-ci ildə L.Lüis M.Taysonu 8-ci raundda nakauta salmışdı.

Qeyd edək ki, Mayk Taysonun peşəkar boks karyerasındakı hesabında 50 qələbə və 6 məğlubiyyət var. 55 yaşlı Lennoks Lüisin hesabında isə 43 qələbə, 2 məğlubiyyət və 1 heç-heçə var.



## Ulduz basketbolçunun kartı rekord məbləğə satıldı

Hazırda ABŞ-ın “Los-Anceles Leykers” komandasında çıxış edən basketbolçu Lebron Ceymsin fotosunun yer aldığı kart rekord məbləğə satılıb. Kart üçün 5,2 milyon ABŞ dolları ödənilib.

2003-cü ildə buraxılan kartda oyunçunun “Klivlend” ilə Milli Basketbol Assosiasiyasında (NBA) ilk mövsümü təsvir olunub.

Burada idmançının imzası da yer alıb. Bu, basketbol tarixində ən bahalı qiymətə satılan kartdır və 23 nüsxədən ibarətdir.

Qeyd edək ki, Lebron Ceyms 2003-cü ildən NBA-da çıxış edir. 37 yaşlı basketbolçu 4 qat NBA çempionu (2 dəfə “Mayami”də, hərəyə 1 dəfə “Klivlend” və “Leykers”də) və ikiqat Olimpiya çempionu (2008, 2012) olub.



## NBA-nın müsəlman ulduzu

“Brooklyn Nets” forması geyinən NBA ulduzu Kayri İrvinq müsəlman olduğunu açıqlayıb. ESPN “Twitter” hesabında bununla bağlı video yayımlanıb. O, Ramazan ayı boyunca ailəsi ilə birgə oruc tutduğunu da bildirib. “Müsəlman icmasının bir hissəsi olduğum və düzgün işlər gördüyüm üçün xoşbəxtəm”, - deyə basketbolçu qeyd edib.

## Baş məşqçi diskvalifikasiya olundu

“Portu” klubunun baş məşqçisi Serjiu Konseysau hakimi təhqir etdiyinə görə 21 günlük diskvalifikasiya edilib. Hadisə Portuqaliya çempionatının 29-cu turunda “Moreyrense” ilə qarşılaşma zamanı baş verib. Məlumata görə, oyundan sonra baş məşqçi hakimə: “Sən zəif və pis insansan. Sən bizdən iki çempionluq oğurlamısan. Sən oğrusan” sözlərini deyib.

Həmçinin qeyd edək ki, diskvalifikasiyadan əlavə S.Konseysauya 10,2 min dollar məbləğində cərimə təyin olunub.

## olimpnews.az - sizin saytınız



## Tennisçi geyimlərini hərraca çıxarır



İsveçrəli tennisçi Roje Federerin xeyriyyə fondu “Kristis” hərrac evi ilə birgə hərrac təşkil edəcək. Müştərilər R.Federerin 20 tituluna həsr olunan 20 ən prestijli satış uğrunda mübarizə aparacaqlar. Hərracın ümumi məbləği 3 mindən 70 min funt sterlinq arasında müəyyən edilib. Belə ki, məsələn, satışa çıxarılanlar arasına tennisçinin Uimbldon-2007 yarışının qalibi olarkən geyindiyi forma yer alıb. Dəstin ilkin qiyməti 30-50 min funt sterlinq məbləğində dəyərləndirilib. Həmçinin R.Federerin 2009-cu ildə “Rolan Qarros” yarışında geyindiyi və qalib gəldiyi forması 50-70 min funt sterlinq, 2012-ci ildə keçirilən Uimbldon turnirində qalib geyimi isə 40-60 min funt sterlinq məbləğində qiymətləndirilib.

Mərasim iyunun 23-də Londonda keçiriləcək.

Həmçinin qeyd edək ki, iyunun 23-dən iyulun 13-14-dək onlayn-hərrac təşkil olunacaq. Hərracdan 100 funt sterlinqdən başlayaraq 300 satış nümayiş olunacaq.

## Məşhur futbolçuların adları Şöhrət Zalına daxil edildi



İngiltərə Premyer Liqasının Şöhrət Zalına adı ilk daxil edilən futbolçuların adları müəyyənləşib. Bunlar fransalı Tyerri Anri və ingiltərəli Alan Şirerdir.

Şirer 441 matçda 260 qol və 64 məhsuldar ötürmə ilə Premyer Liqa tarixinin bombardiri sayılır. Keçmiş hücumçu karyerası ərzində “Sauthempton” “Blekbern” və “Nyukasl”da çıxış edib.

Anri isə “Arsenal”ın heyətində iki dəfə çempionatın, üç dəfə isə ölkə kubokunun qalibi olub.

Hokkey üzrə Rusiya millisinin keçmiş üzvü Roman Qeyzelin Kemerova şəhərində cəsədi aşkar edilib.

## Dördqat dünya çempionu intihar etdi



Məlumata görə, 40 yaşlı dördqat dünya çempionu özünə qəsd edib. Hadisənin hansı səbəbdən baş verdiyi barədə məlumat verilmir.

Qeyd edək ki, Rusiyanın əməkdar idman ustası olan hokkeyçi idman karyerası ərzində 1998-2012-ci illərdə Kemerovanın “Kuzbas”, 2012-2013-cü illərdə isə Novosibirskin “Sibselmaş” klublarının şərəfini qoruyub.

R.Qeyzel 2006, 2007, 2008 və 2011-ci illərdə Rusiya millisinin tərkibində dünya çempionu olub. Həmçinin Roman Qeyzel 2005-ci və 2011-ci illərdə mövsümün ən yaxşı qapıçısı adını qazanıb.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49;
564-74-19